# ASLANOV ŞİKAR DAVUD OĞLU



Aslanov Şikar 1970-ci il iyun ayının 10-da Cəbrayıl rayonunun Süleymanlı kəndində anadan olmuşdur. 1977-ci ildə Süleymanlı kənd orta məktəbinin birinci sinfinə getmiş, 1987-ci ildə həmin məktəbi bitirmişdir. 1988-ci ildə Sovet Ordusu sıralarına çağırılan Şikar, 1990-cı ildə ordudan tərxis olunur və doğma kəndinə dönür. Elə həmin ildə Cəbrayıl Rayon Daxili İşlər Şöbəsində post-patrul bölməsinə qəbul olunur. Erməni işğalçılarının Vətənimizə basqını zamanı Şikar Aslanov da silaha sarılaraq döyüşə yollanır və ən qaynar döyüşlərin iştirakçısı olur. 1992-ci ilin iyun ayında Xocavənd rayonunun Sur kəndində o, öz PDM-ı (piyadaların döyüş maşını) ilə düşmənin neçə-neçə atəş nöqtəsini susdurur. Döyüşlərdə göstərdiyi şücaətə görə Şikar bir neçə dəfə komandirləri tərəfindən fərqləndirilmişdir. O, təkbaşına kəşfiyyata getməyə üstünlük verir, hər dəfə də dəqiq məlumatla geri dönürdü. 1992-ci il iyul ayının 2-si "Şayaq" əməliyyatı zamanı snayper gülləsi Şikar Aslanovu başından ağır yaralayır. O, hospitala çatdırılsa da, onu ölümün pəncəsindən xilas etmək mümkün olmur. Doğulduğu Süleymanlı kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Aslanov Şikar Davud oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Cəbrayıl rayonu Süleymanlı kənd orta məktəbi onun adını daşıyır.